Azərbaycan. - 2025.- 6 sentyabr (№ 189).- S. 6.

# Azərbaycanın və Perunun Xarici İşlər nazirlikləri arasında ilk siyasi məsləhətləşmələr keçirilib

**Sentyabrın 3-4-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov Peru Respublikasında səfərdə olub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfər zamanı Lima şəhərində Azərbaycanın və Perunun Xarici İşlər nazirlikləri arasında ilk siyasi məsləhətləşmələr keçirilib.

Nümayəndə heyətlərinə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Peru tərəfindən isə xarici işlər nazirinin müavini Feliks Deneqri Boza başçılıq ediblər.

Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi, iqtisadi, energetika, mədəniyyət, turizm və digər sahələrdə əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, həmin istiqamətlərdə müqavilə-hüquq bazasının yaradılmasının əhəmiyyəti vurğulanıb.

Müvafiq təqdimatlar vasitəsilə hər iki ölkədə mövcud iqtisadi-ticarət imkanları barədə məlumat verilərək, birgə təşəbbüslərin təşviqinə qarşılıqlı dəstək ifadə olunub.

Səfər çərçivəsində nazir müavini Elnur Məmmədov Peru Respublikası Konqresinin sədri, Peru-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Xose Enrike Xeri ilə görüşüb. Görüşdə parlamentlərarası münasibətlərin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb, ikitərəfli və çoxtərəfli platformalarda əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Eyni zamanda Perunun xarici işlər naziri Elmer Şialer Salsedo ilə keçirilmiş görüşdə qarşı tərəf Azərbaycanla ikitərəfli münasibətlərin inkişafına ölkəsinin marağını ifadə edərək, ilk siyasi məsləhətləşmələrin əlaqələrin müxtəlif sahələrdə genişləndirilməsinə təkan verəcəyinə ümidvar olduğunu bildirib.

Səfər çərçivəsində nazir müavini Elnur Məmmədov Perunun aparıcı "La Razon" qəzetinin müxbiri, Peru Jurnalistlər İttifaqının sədr müavini Rikardo Sançes Serraya, eləcə də bu ölkənin rəsmi media qurumları olan "El Peruano" qəzeti və "Andina" dövlət informasiya agentliyinə müsahibə verib.

Bununla yanaşı, E.Məmmədov Amerika qitəsinin qədim ali təhsil müəssisəsi olan Perunun "San Markos" Milli Dövlət Universitetində mühazirə oxuyub. Mühazirə zamanı Azərbaycanın xarici siyasət prioritetləri haqqında ətraflı təqdimat edilib, auditoriyanı maraqlandıran suallar cavablandırılıb.